# Novruz çərşənbələri

Qədim əcdadlarımızın, ata-babalarımızın bizə əmanət olaraq qoyduqları milli-mənəvi dəyərlərimizdən biri də Novruz bayramıdır. Hələ Novruz bayramından əvvəl qışın ilk vaxtlarından başlayaraq qırx gün müddətində Böyük Çillə, ondan sonrakı 20 gündə isə Kiçik Çillə davam edir. Xalq təqviminə görə kiçik çillə öz ömrünü başa vurub, yerini "boz aya" verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çillə beçə", "ağlar-gülər", və s. adlarla bilinməkdədir. Boz ay kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə - martın 21-nə qədər olan dövrü əhatə edir. Ayın adının bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli - bir sözlə dəyişkən olması ilə bağlıdır.

Novruz bayramı təbiətin canlanmasının, torpağın oyanmasının, ruhun təzələnməsinin rəmzidir. Xalqımızın əsrlərin sınağından çıxmış mənəvi dəyərlərini, adət-ənənələrini özündə yaşadan ən gözəl, təmtəraqlı bayramıdır. Novruzun gəlişi baharın gəlişidir. Qədim inanca görə, həmin gün il təzələnir, təbiət canlanır, yenilənir. Novruz bayramına təbiət də, insanlar da günlərlə, həftələrlə hazırlaşır. Novruz bayramı kimi, ondan əvvəlki dörd çərşənbəyə də xalqımız böyük əhəmiyyət verir, təmtəraqla keçirilir. Xalq arasında onları Boz ayın çərşənbələri də adlandırırlar.

Rəvayətə görə, Tanrı ilk insanı - Adəmi yaradarkən torpağa su qatıb, palçıqdan insan düzəldib, sonra ona isti nəfəs verib, baharda çiçəkləri, otları, ağacları oyadan yellərə əmr edib ki, onu canlandırsın. İnsan da bu dörd ünsürdən yarandığı üçün tarixboyu onları müqəddəsləşdirərək, hərəsinə bir gün ayırıb. Beləcə, yazın - Novruzun müjdəçiləri olan Su, Od, Yel, Torpaq çərşənbələri yaranıb.

**B**oz ayın ilk çərşənbəsi xalq arasında "Əzəl çərşənbə" kimi tanınan Su çərşənbəsidir. Azərbaycan xalqının inancına görə, yazın nəfəsi öncə suya toxunur. Xalq arasında deyilir ki, bu gündən sulara ixtiyar verilir. Buna görə də bu çərşənbə suyun təzələnməsi ilə əlaqədardır. İnama görə, həmin çərşənbədə su oyanır, saflaşır, təzələnir. Elə ki isti, hərarət suya düşdü, suların donu açılır. Su çərşənbəsində su üstə gedərlər, ancaq su gətirməzlər. Su üstə gedib oradan su götürmək adətinə ilin axır çərşənbəsinin səhəri əməl edərlər. Xalq arasında olan inama görə, həmin gün sudan nə istəsən həyata keçər. Bununla əlaqəli bir deyim də mövcuddur: Su üstə, Novruz üstə, Bəxtini sudan istə. El-oba da su çərşənbəsi ərəfəsində su arxlarını təmizləyər, bulaqların, çeşmələrin gözü açılar, novdanlar, hovuzlar təmizlənər, bərpa işləri aparılar.

Yaz fəslinin gəlişini xəbər verən Novruz bayramı ilin başlanğıcı kimi də qəbul edilir. Məhz buna görə də insanlar sudan onun kimi şəffaf və gözəl bir ilin keçməsini arzulaya bilərlər. İlk tonqalın su çərşənbəsində yandırılması buzların əriməsi, artıq qışın arxada qalmasının göstəricisidir. Su çərşənbəsində masa üzərinə su qoymaq, masada suyun aşması xeyirliyə yozulur. Əgər süfrənizdə su aşıb tökülərsə, həmin ilin sizin üçün bol bərəkət gətirəcəyi gözlənilir.

Su çərşənbəsi günü lal axan suyun üzərindən keçmək uğursuzluq əlaməti sayılır. Su çərşənbəsində hamının həyətində tonqal qalanır və bayram ovqatının yaxınlaşdığı nəzərə çatdırılır. Həmin gün insanların bir-birinin üzərinə su atması da uğura işarədir. Bu ilin ilk çərşənbəsi - Su çərşənbəsi fevral ayının 22-nə təsadüf edir. Martın 1-i Od, 8-i Yel (Hava), 15-i isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq.

**B**oz ayın ikinci çərşənbəsi olan Torpaq çərşənbəsində havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir ki, bu Novruzun xəbəri kimi başa düşülür. Torpaq oyanır və artıq əkinə hazır olduğunu göstərir. El arasında deyərlər ki, "Cəmrə, yəni istilik torpağa düşür". Torpaqdan buxar qalxır, deməli torpaq qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən, yazlıq arpa yavaş-yavaş əkilməlidir. Xalq arasında olan inama görə, bolluq, bərəkət rəmzi olaraq Torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Evlərdə səməni elə bu çərşənbədən qoyulmalıdır ki, axır çərşənbəyə hazır olsun.

**X**alq təqviminə uyğun olaraq, Boz ayın üçüncü çərşənbəsi Yel çərşənbəsidir. Yel çərşənbəsində küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Elə ki, yel əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərər. Köçəri quşlar (leylək, durna, qaranquş) yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayar.

**B**oz ayın dördüncü, sonuncu çərşənbəsi xalq arasında "ilin axır çərşənbəsi" kimi bilinən Od çərşənbəsidir. Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma ilə əlaqəli yaranmışdır. Hələ çox-çox əvvəllər insanlar təbiəti canlandıran, torpağı isidən Günəşin yerdəki rəmzi kimi odu müqəddəsləşdirmişlər. Od çərşənbəsində tonqallar qalanır, atəşfəşanlıq edilir. Tonqalın ətrafına toplaşan insanlar odun üzərindən atlanmaqla köhnə ildən qalan əzablarını, ağırlıqlarını sanki arxada qoyur və yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına inanırlar. Yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün" deyib tullanarlar.

Onu da qeyd edək ki, yaz fəsli Azərbaycana martın 20-si saat 19:33-də daxil olacaq. 20-i bazar gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 25 mart qeyri-iş günü olacaq.

Beləliklə, 26 və 27 mart tarixləri də şənbə gününə təsadüf etdiyi üçün Novruz bayramı ilə əlaqədar 8 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 və 27 mart) qeyri iş günü hesab olunur.

# İnşa-yazı müsabiqəsi

Qəbələ Rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı və Rayon Təhsil şöbəsinin dəstəyi ilə "Xocalı soyqırımının 30-cu ildönümü"nə həsr edilmiş məktəblilər arasında "Xocalı soqırımı-qan yaddaşımız" adlı inşa-yazı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə 20-dək yeniyetmə-gənc qatılmışdır.

24 fevral 2022-ci il tarixində Heydər Əliyev Mərkəzində müsabiqəyə yekun vurulmuş və qaliblər mükafatlandırılmışdır.

Tədbiri giriş sözü ilə Rayon Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov açaraq iştirakçıları salamlamış və Xocalıda qəhrəmanlıqla həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə Rayon Təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxış edərək müsabiqənin keçirilməsinin əsas məqsədinin insanların, xüsusilə gənclərimizin şüurunda maddiləşdirmək və "Xocalıya ədalət!" Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasına dəstək verməkdən ibarət olduğunu bildirərək cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülməsi, 487 nəfər şikəst olması, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalması barədə məlumat vermişdir.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yer, 2 nəfər II yer, 3 nəfər III yerə layiq görülmüşdür. İnşa yazı müsabiqəsinin yekunlarına əsasən Qəbələ şəhər 3 saylı tam orta məktəbin şagirdi Azərin Səlimova I yer, Qəbələ şəhər 5 saylı tam orta məktəbin şagirdi Dibər Xəlilova və Vəndam qəsəbə 2 saylı tam orta məktəbin şagirdi Azərin Muradxan II yer, Zarağan kənd 1 saylı tam orta məktəbin şagirdi Xədicə Mustafayeva, Nohurqışlaq kənd tam orta məktəbin şagirdi Fatimə Hafizova və Vəndam qəsəbə 1 saylı tam orta məktəbin şagirdi Güllər Bağırova III yerə layiq görülmüşlər.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

# ELAN

Böyük Pirəli bələdiyyəsinə hesabdar (vergiyığan) vəzifəsinə müsabiqə elan olunur. Bununla bağlı Böyük Pirəli bələdiyyəsinə müraciət edə bilərsiniz.

# İTMİŞDİR

Qəbələ rayon Mıxlıqovaq kənd sakini **Oruclu Orxan Azad oğluna** məxsus "Xidmət Servis MM" MMC-nin 2019-cu ildə verilmiş **möhürü** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası MN tərəfindən 31.05.2000-ci il tarixdə **Həşimov Coşqun Qiyas oğluna** verilmiş M/V № 018732 nömrəli **vəsiqə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini **Mustafayev Şahin Dünyamir oğluna** məxsus fərdi yaşayış evinin (reyestr nömrəsi: 406013059420-10301) **texniki pasportu** və qeydiyyat nömrəsi 1918006831, RX №1372756 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Zarağan kənd sakini **Abdullayev Ağamir Ağakərim oğluna** məxsus reyestr nömrəsi: 406013013493, AA № 000663 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Zarağan kənd sakini **Abdullayev Ağamir Ağakərim oğluna** məxsus reyestr nömrəsi: 406013013493, RX № 0251759 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Vəndam qəsəbə sakini **Mirzalıyev Aqil Qiyas oğluna** məxsus reyestr nömrəsi: 406013062894, AA № 093407 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Vəndam qəsəbə sakini **Mirzalıyev Aqil Qiyas oğluna** məxsus reyestr nömrəsi: 406013062894, RX № 0910858 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Bum qəsəbə sakini **Məmmədov Akif Məmməd oğluna** məxsus reyestr nömrəsi: 406012001313 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2022-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1380*